# "İnklüziv və davamlı inkişaf üçün vergi islahatları: rəqəmsal transformasiya ilə könüllü əməletməyə doğru" mövzusunda Vergi Forumu keçirilib




Fevralın 25-də "İnklüziv və davamlı inkişaf üçün vergi islahatları: rəqəmsal transformasiya ilə könüllü əməletməyə doğru" mövzusunda Vergi Forumu keçirilib. Videoformatda təşkil olunmuş tədbirdə İqtisadiyyat Nazirliyinin və nazirlik yanında Dövlət Vergi Xidmətinin rəhbərliyi, dövlət qurumlarının nüma-yəndələri, millət vəkilləri, sahibkarların ictimai birliklərinin təmsilçiləri, xarici və yerli ekspertlər, iş adamları iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administra-siyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov çıxış edib. Vergi sistemində aparılan islahatların ölkənin iqtisadi inkişaf siyasəti ilə uzlaşdığını qeyd edən Ş.Mövsümov ölkənin iqtisadi hədəfləri və vergi sistemi qarşısında duran çağırışlar barədə fikirlərini bölüşüb.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət büdcəsinin gəlirlərinin artması istiqamətində əldə olunan nəticələrin arxasında hər bir vergi əməkdaşının gərgin və fədakar əməyinin dayandığını bildirib. Nazir 2021-ci ildə iqtisadiyyatın bərpası ilə bağlı atılan addımlara və əldə olunmuş nəticələrə nəzər salıb, COVID-19 səbəbindən səngimiş iqtisadi fəallığın nəinki bərpa olunduğunu, eyni zamanda ÜDM-in həcminin daha da artdığını vurğulayıb.

Konfransda Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli təqdimatla çıxış edib və vergi sistemində reallaşdırılan islahatlar, həyata keçirilən tədbirlər barədə danışıb. Təqdimatda fiskal göstəricilər sahəsində əldə olunan nəticələr, "kölgə iqtisadiyyatı" ilə mübarizə, vergi xidmətində rəqəmsallaşma, perspektiv layihələr, ortamüddətli perspektivdə vergi siyasətinin əsas istiqamətləri barədə geniş məlumat verilib.

Sonra Avropadaxili Vergi Administra-siyaları Təşkilatının (İOTA) icraçı katibi Alix Perrignon de Troyes, Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sarah Maykl, millət vəkili, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş idarəsinin rəisi Nicat İmanov, Bakı Hesabat Mərkəzinin direktoru Mehdi Babayev, Dövlət Vergi Xidmətinin rəisinin müşaviri Sərxan Həşimov, Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş idarəsinin rəisi Elçin Ağakişiyev, Ernst & Young şirkətinin Partnyoru Arzu Hacıyeva, "Kapital" Bankın İdarə Heyətinin sədri Rövşən Allahver-diyev, Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri Cemal Yangın, "Azerconnect" MMC-nin baş direktoru Emil Məsimov, Azərbaycan Fermerlər Assosiasiyasının rəhbəri Pərviz İlyasov, "Şamaxı Dairy Farm" MMC-nin rəhbəri Fuad Məmmədov müxtəlif mövzularda çıxış ediblər.






